# ƏLİYEV ELNUR ADİL OĞLU



Elnur Əliyev 1976-cı ilin 16 avqust tarixində Füzuli rayonunun Dədəli kəndində anadan olmuşdur. Mayor Əliyev 10 il Tovuzda, daha sonra bir neçə il Daşkəsən, Gəncə və Murovdağda yerləşən "N" saylı hərbi hissələrdə xidmət edib. Sonuncu hərbi hissədə mayor rütbəsi alıb. Daha sonra o, Bərdənin "N" saylı hərbi hissəsində qərargah rəisi olub və son olaraq 2014-cü ilin noyabrından etibarən Füzuli rayonundakı "N" saylı hərbi hissənin səfərbərlik və komplektləşdirmə şöbəsinin rəisi kimi işləyib. Mayor Elnur Əliyev 2016-cı ilin aprel ayında Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı atılan qumbaranın üstünə tullanıb, yoldaşlarının həyatını xilas edib və şəhid olub. Elnur Əliyev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Vətənə xidmətə görə" ordeni (III dərəcəli) ilə təltif edilmişdir. Elvin və Elxan adında iki oğlu yadigar qalmışdır.